Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın eks baş naziri "Azərbaycanın yerində olsaydım" təhrikçi mesajı ilə nə demək istədi... Paşinyanın "Kazan formulu"na keçid üçün öz hesabları var?..

**Ermənistanda mövcud hakimiyyətin Dağlıq Qarabağ münaqişəsi ətrafında hazırkı vəziyyəti hələ də düzgün qiymətləndirməməsi konfliktin hərbi həllini daha sürətlə yaxınlaşdırmaqdadır. Özü də burada nəzərə almaq lazımdır ki, Azərbaycan qeyd edilən xüsusda Ermənistana ünvanlanmış xəbərdarlıqların da sayını artırıb.**

Qeyd edilən xüsusda Prezident İlham Əliyevin Tərtər Olimpiya İdman Kompleksinin açılışında çıxışı zamanı səsləndirdiyi fikirlər də ayrıca diqqət cəlb etdi. Siyasi və hüquqi baxımdan Qarabağ məsələsində Azərbaycanın mövqeyinin mükəmməl olduğunu bildirən dövlət başçısı ölkəmizin gücünü yenidən düşmənə xatırlatdı:"Biz iqtisadi sahədə, hərbi sahədə Ermənistandan qat-qat güclüyük və bunu göstərmişik, o cümlədən döyüş meydanında. Onlar bizə hücum etdi, biz cavab verib onları yerinə oturtduq. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad etdik... Aprel döyüşləri mənfur qonşumuza dərs olmalı idi. Ondan sonra 2018-ci ildə Naxçıvan əməliyyatı. Orada da minlərlə hektar torpaq bizim nəzarətimizə keçdi. İşğal olunmuş torpaqları azad etdik. Azərbaycan ordusu gücünü göstərdi".

Dövlət başçısı qeyd edib ki, münaqişənin həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır:"Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün addımlarımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeyi dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir". Buradan kifayət qədər aydın görünür ki, Azərbaycan düşmənlə güc dilində danışmağa hazırdır və bu istiqamətdə gücünü daha da artırır. Bu isə o deməkdir ki, 4 il əvvəl baş tutan aprel savaşı istənilən an yenilənə bilər. Həmin əməliyyatlardan Azərbaycanın malik olduğu hərbi güc düşmənə kifayət qədər yaxşı məlumdur. Məhz aprel zəfərində illərlə yaradılan "məğlubedilməz erməni ordusu" mifi dağıldı və erməni xalqı işğalçılıq siyasətinin iflasa uğradığını dərk etdi. Erməni xalqı, eyni zamanda dünya ictimaiyyəti də başa düşdü ki, işğal olunmuş ərazilərin hərb yolu ilə azad edilməsi mümkündür. Azərbaycan xalqı, dövləti və ordusu buna tam qadirdir. Bundan başqa, düşmən unutmur ki, aprel döyüşləri Azərbaycan xalqının və ordusunun tarixi ərazilərimiz olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi üçün hər cür fədakarlığa hazır olduğunu, düşmənlə yanaşı, bütün dünyaya sübut etdi. Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əkshücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, Azərbaycan ordusu təmas xəttində mövcud vəziyyətə tam nəzarət etsin və lazımi tədbirləri görə bilsin. Məhz uğurlu aprel qələbəsindən daha da ruhlanan Azərbaycan ordusu iki il sonra daha bir böyük zəfər qazandı. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir.

İstər şanlı aprel döyüşləri, istərsə də Günnüt zəfəri Azərbaycanın düşmən üzərində hərbi qələbəyə istənilən vaxt imza ata biləcəyini nümayiş etdirir. Elə dövlət başçısı Tərtərdə məhz bunu yenidən düşmənə xatırladıb. Bir daha qeyd edilib ki, Azərbaycanın malik olduğu potensial işğal altındakı bütün torpaqlarımızın tezliklə azad ediləcəyini tam əminliklə deməyə ciddi əsas verir. Bunun güc yolu ilə də reallaşmasının mümkünlüyünü dövlət başçısı düşmənə açıq şəkildə bildirdi. Elə bu fonda Azərbaycan öz ordusunun hərbi-texniki imkanlarını, yerli hərbi sənayeni ilbəil gücləndirməklə, sözsüz ki, həm də öz döyüş qabiliyyətini gücləndirməkdədir. Çünki Qarabağ konfliktinin güc yolu ilə həll variantı gündəmdən çıxmayıb. Əksinə, Ermənistanın təxribatçı mövqeyi, status-kvonu süni şəkildə uzatmağa yönəlik siyasəti üzündən savaş ehtimalı getdikcə artmaqdadır. Bunu Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun baş direktoru Sergey Markov da isitisna etmir. O bildirir ki, Azərbaycan zəbt edilmiş əraziləri qaytarmaqda israrlıdır:"Ermənistan bunu nəzərə almalıdır. İrəvan bilməlidir ki, savaş istənilən an başlana bilər və bu dəfə Azərbaycanı saxlamaq mümkün olmayacaq. Ermənistan Rusiyanın məsələyə müdaxilə edəcəyini düşünürsə, yanılır. İrəvan Rusiya ilə bağlı bağışlanmaz səhvlərə yol verir. Məsələn, erməni hakimiyyət strukturlarının amerikalılaşdırılması, ölkəni Amerika imperializmi siyasətinə tabe etmə prosesi baş verir. Bu, hər şeydən əvvəl, ABŞ-dakı erməni diasporunun əlaltısı olan Nikol Paşinyanın qələbəsindən sonra başladı. Təsadüfi deyil ki, Ermənistanın baş naziri komandasına çoxlu sayda qrant yeyəni, yəni ictimai və siyasi karyerası boyunca Amerika yardımlarından bəhrələnənləri daxil edib. Bununla əlaqədar olaraq, təbii ki, Rusiyaya qarşı tənqid və şübhə artmaqdadır. Onlar iqtisadi blokadanı qaldırmaq və strateji müttəfiq kimi Rusiyanı sıradan çıxarmaq üçün Qarabağ münaqişəsinin həlli istiqamətində addımlar atmaq istəyirlər. Hazırda belə hesab edirlər: Müharibə olacağı təqdirdə Moskva bizə lazımdır ki, Azərbaycan və Türkiyədən müdafiə üçün ondan istifadə edək. Amma Rusiya artıq məsələyə fərqli yanaşır. Ermənistandakı qruplaşma üçün ABŞ-a doğru addım atmaq vacibdir. Ancaq bu, Azərbaycan üçün də faydalıdır! Rusiyanın Gümrüdəki hərbi bazaya və Ermənistanı müttəfiq hesab etməyə çox da ehtiyacı yoxdur. Bu kor bucaqdır, orada operativ meydan yoxdur. İqtisadi baxımdan Ermənistan çox zəifdir. Düzdür, Rusiya Federasiyasında və digər ölkələrdə erməni icmasının loyallıq amili var. Lakin Paşinyanın nümunəsində xarici erməni icmaların Rusiyaya xüsusi loyal olmadığını görürük".

Bu arada ölkəsinin ağır durumunu dəyərləndirən Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan bəyan edib ki, Azərbaycanın yerində olsaydı, təkcə Qarabağa deyil, həm də koronavirus səbəbindən zəiflədiyi üçün Ermənistana hücum edərdi. Buna da münasibət bildirən Sergey Markov qeyd edir:" Məncə, ziddiyyətli açıqlamalar qismən qeyri-adekvatlıq, bir qədər də özünü itirməklə bağlıdır. Ermənistan rəhbərliyinin blokadanı qaldırmaq istədiyi bir vəziyyətdə nə etməli? Bunun üçün güzəştə getmək və əraziləri Azərbaycana qaytarmaq lazımdır, digər tərəfdən, buna getmək çox qorxuludur. Mənə elə gəlir ki, Nikol Paşinyan Azərbaycanın hərbi əməliyyatlara başlamasında maraqlıdır. Bir neçə günlük döyüşdən sonra bütün vasitəçilər - Rusiya, Avropa İttifaqı, Fransa və ABŞ işə qarışacaq. Onlar Paşinyanı Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycana verilməsini nəzərdə tutan "Kazan formulu" ilə razılaşmağa inandıracaqlar. Ermənistanın baş naziri həm vasitəçilərin təzyiqlərinə, həm də "DQR"in yeni rəhbərliyinə istinad etmək istəyir. Beləliklə, Nikol Paşinyan faktiki olaraq Azərbaycandan hərbi əməliyyatlara başlamağı xahiş edir, yəni bir az döyüşək, sonra isə "Kazan formulu"na gələk". Ekspert bildirir ki, istənilən halda Azərbaycan savaşa başlamaqla işğal siyasətinə son qoymaq iqtidarındadır. Bununla belə, Bakı sülh qapılarını da bağlamayıb və hələ də ümidlidir ki, ATƏT-in Minsk Qrupunun üç həmsədr dövləti işğalçını, nəhayət, ağla gətirmək üçün gərəkən addımları atacaq. Əks təqdirdə Bakı bunu savaşla edəcək. Burada o da nəzərə alınır ki, Qarabağ danışıqlarını hələ də dalandan çıxarmaq mümkün olmayıb. Yaxın tezlikdə bu durumda dəyişiklik olmasa, savaş qaçılmazdır. Bu fonda maraq doğuran məqam həm də bundan ibarətdir ki, Ermənistanın qeyri-konstruktivliyi davam etdiyi şəraitdə Azərbaycan düşməndən hərbi cəhətdən də kifayət qədər üstün olduğu halda nədən genişmiqyaslı əməliyyatlara start vermir. Ekspertlər hesab edir ki, Azərbaycan, əslində danışıqlar prosesinin növbəti mərhələsini gözləyir. Bu mərhələdə də istənilən nəticə əldə olunmazsa, Bakı hərbi müstəvidə İrəvana yenidən dərs keçməli olacaq. Buna qədər isə Azərbaycan beynəlxalq birlik tərəfindən tanınan sərhədlərinin bərpası, BMT Təhlükəsizlik Şurasının işğal edilmiş ərazilərimizin qeyd-şərtsiz azad edilməsi ilə bağlı 4 qətnaməsinin tələblərinin yerinə yetirilməsi üçün səylərini davam etdirməkdədir.

Ekspertlər qeyd edir ki, Bakının sülh danışıqlarına önəm verməsi indi Ermənistan üçün ən böyük güzəştdir. Ancaq Ermənistan bundan sonra da sülh danışıqlarında qeyri-konstruktiv mövqe nümayiş etdirsə, Azərbaycan özünün beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünü ordusunun gücü ilə təmin etmək məcburiyyətində qalacaq. Hazırda ordumuzun arsenalında olan ən müasir silahlar, tanklar, artilleriya qurğuları, döyüş təyyarələri və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir. Amma İlham Əliyevin yuxarıda səslənən fikrindən aydın görünür ki, Azərbaycan hərbi gücünü daha da artırmaqda davam edir. Bu isə münaqişənin hərbi həlli zamanı düşmənə daha sarsıdıcı zərbələr vurmağa imkan verəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**